

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

24 sentyabr 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 36 (3799)


# Təbii sərvətlərdən sənaye gücünə



## Prezidentin sədrliyi ilə müşavirə keçirilib

Sentyabrın 22-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikasında 2027–2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirə keçirilib.

Prezident çıxışında bildirib ki, dağ-mədən və metallurgiya sənayesi ölkə iqtisadiyyatı, xüsusilə qeyri-neft sektorunun inkişafı üçün perspektivli sahələrdən biridir. Dövlət proqramının icrası nəticəsində Azərbaycanda yeni sənaye istiqamətinin formalaşdırılması, beş mindən çox daimi iş yerinin açılması, təbii resurslardan səmərəli istifadə və tam istehsal zəncirinin yaradılması nəzərdə tutulur.

Dövlət başçısı qeyd edib ki, proqram 2027–2030-cu illəri əhatə edəcək və dörd il ərzində tam icra olunmalıdır. Proqram regionların sosial-iqtisadi inkişafına da töhfə verəcək.

Prezident son 20 ildə bölgələrdə əsas infrastruktur layihələrinin həyata keçirildiyini, enerji təminatı sahəsində böyük imkanların yaradıldığını vurğulayıb. Hazırda ölkədə qazlaşmanın səviyyəsinin 96 faizə çatdığı, 25 milyard kubmetrdən çox qazın ixrac edildiyi, elektrik enerjisi üzrə güclü generasiya potensialının formalaşdırıldığı bildirilib.

Ölkə iqtisadiyyatındakı artım templərinə toxunan dövlət başçısı ümumi daxili məhsulun 1,2 faiz artmasının əsas səbəblərindən birinin neft hasilatının azalması olduğunu bildirib. Bununla yanaşı, ilin səkkiz ayında qeyri-neft sektorunda 5,4 faiz artım qeydə alınıb. Prezident qəbul edilmiş proqramların bu artımın uzunmüddətli olmasına imkan yaradacağını qeyd edib.

Dağ-mədən sənayesinin indiyədək lazımi səviyyədə inkişaf etməməsinin səbəblərindən danışan Prezident bildirib ki, sovet dövründə aşkar edilmiş bir sıra yataqlar işğal altında olan ərazilərdə yerləşirdi. İşğal dövründə həmin ərazilərdə qızıl, mis və molibden yataqları qanunsuz istismar olunub. Hazırda isə mövcud yataqların müasir geoloji üsullarla yenidən qiymətləndirilməsi və yeni ehtiyatların aşkarlanması qarşıya əsas vəzifələrdən biri kimi qoyulub.

İlk növbədə Kəlbəcər, Ağdərə və Zəngilan rayonlarında yerləşən qızıl, mis və molibden yataqlarının istismara verilməsi nəzərdə tutulur. Ağdərədə artıq işlərə başlanılıb, yaxın gələcəkdə Kəlbəcər və Zəngilanda da işlərin başlanması planlaşdırılır.

Bu istiqamətdə fəaliyyət həm dövlət, həm də özəl sektorun iştirakı ilə qurulacaq. Dövlət xətti ilə əsas işləri "AzerGold" həyata keçirəcək. Prezident vurğulayıb ki, yeni böyük yataqlar aşkar ediləcəyi təqdirdə hasilatla kifayətlənmək olmaz, zənginləşdirmə və emalı əhatə edən tam istehsal zənciri yaradılmalıdır.

Dövlət başçısı proqramın maliyyə təminatının müəyyən edildiyini, yerli və xarici investorların iştirakı üçün imkanların açıq olduğunu bildirib. Proqramın icrası nəticəsində yeni sənaye sahəsinin formalaşması, Qarabağ və Şərqi Zəngəzurda məşğulluğun artması gözlənilir.

# Yollarda təhlükəsizliyin keşiyində

### "Formula 1" ərəfəsində paytaxt yollarında hərəkətin idarə olunmasına nəzarət artırılıb

Formula 1 Azərbaycan Qran - prisi yaxınlaşdıqca adəti üzrə şəhərin mərkəzində gündəlik həyatın ritmi də dəyişib. Bəzi yollarda hərəkət istiqamətləri dəyişdirilib, avtomobil axını alternativ küçələrə yönəldilib. Doğrudur, bu günlərdə şəhərdə hiss etdiyimiz intensivliyin səbəbini yalnız "Formula 1" ilə bağlamaq düzgün olmazdı.

*(Ardı 2-ci səhifədə)*

# Son döyüş, suveren Vətən!

### Antiterror şəhidlərinin adı tariximizdə əbədi qalacaq

Düz 3 il əvvəl, 2023-cü il sentyabrın 19-da bütün dünya Azərbaycanın bölgədə yaratdığı yeni tarixi anı seyr edirdi. Qarabağda başlayan lokal xarakterli antiterror tədbirləri illərlə davam edən separatizmə gün başa çatmamış son qoyacaq, ölkənin bütün ərazisində dövlət suverenliyinin tam bərpasını təmin edəcəkdi...

Cəmi 23 saat 43 dəqiqə ərzində başa çatan döyüşlərin nəticəsini bu gün qiymətləndirərkən onun "Əsrə Bərabər Gün"lə müqayisə edilməsi, heç də metafora kimi səslənmir.

*(Ardı 3-cü səhifədə)*

# Prezident onları əfv etdi

### Dövlət başçısı Sərəncam imzalayıb

Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 19 şəxs, azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş bir nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib.

# "Qobustan" GES istifadəyə verilib

### "Yaşıl enerji"yə keçid sürətlənəcək

Prezident İlham Əliyev sentyabrın 16-da paytaxtın Qaradağ rayonunda 100 MVt gücündə "Qobustan" Günəş Elektrik Stansiyasının açılışında iştirak edib.

Stansiyanın istismara verilməsindən sonra hər il təxminən 200 milyon kilovat saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur. Bunun nəticəsində ildə 45 milyon kubmetr təbii qaza qənaət olunacağı, atmosferə atılan karbon emissiyalarının isə 97 min ton azalacağı proqnozlaşdırılır.

# Sabitlik inkişafın əsas şərtidir

### Prezident təhlükəsizlik üzrə rəhbər şəxsləri qəbul edib

Prezident İlham Əliyev sentyabrın 17-də Türk Dövlətləri Təşkilatına üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxslərini qəbul edib.

Dövlətimizin başçısı görüşdə Türk Dövlətləri Təşkilatının uğurlu inkişafından danışaraq ölkələrimizin ərazilərində sabitliyin, sülhün və təhlükəsizliyin hökm sürməsinin hazırkı siyasi reallıqlarda inkişaf üçün mühüm amil olduğunu bildirib. Prezident vurğulayıb ki, sabitlik və təhlükəsizlik olmadan heç bir ölkənin inkişafı mümkün deyil.

# Şamaxı sürətlə inkişaf edir

### Yeni turizm obyektlərinin açılışı olub

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxı rayonuna səfər ediblər. Həmin gün Prezident və birinci xanım "Meysari Grand Hotel & SPA" kompleksinin, "Pirqulu Park" hotelinin açılışlarında iştirak ediblər.

Həmçinin səfər çərçivəsində dövlətimizin başçısı və birinci xanım "Nəsimi Bağları" kompleksi və Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə tanış olublar.


**Növbəti sıra baxışı keçirilib** 2



**Həcmi kiçik, məsuliyyəti böyük** 3



**DİN xidmətə qəbul elan edir** 4




**Veteran cüdoçulardan qızıl medal** 4



# Respublika Xəbərləri

### Ailələr yurdlarına qayıdır

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Sentyabrın 22-də Xankəndi şəhərinə 3, Xankəndinin Kərkicahan qəsəbəsinə 5, Xocalının Təzəbinə kəndinə 7, Xanyurdu kəndinə 5, Xanabad kəndinə 2, Ballıca kəndinə 1, Ağdərənin Vəngli kəndinə 4, Çapar kəndinə 4, Aşağı Oratağ kəndinə 4, Cəbrayılın Şükürbəyli kəndinə isə 24 ailə köçürülüb.

### Nazirliklər birgə kampaniyaya başlayıblar

Daxili İşlər Nazirliyi və Gənclər və İdman Nazirliyi yol təhlükəsizliyinə həsr olunan birgə maarifləndirmə kampaniyasına başlayıb. Kampaniyada əsas çağırış skuter, velosiped və motosiklet istifadəçilərinə ünvanlanıb. Kampaniyaya qoşulan Azərbaycanın tanınmış idmançıları öz mesajları ilə idmanda olduğu kimi, yolda da diqqət, intizam və düzgün qərarın həyati əhəmiyyət daşıdığını xatırladırlar.

### Şagirdlərin geyim standartları təsdiqlənib

Nazirlər Kabineti şagirdlərin geyim formasının standartlarını təsdiqləyib. Qərara əsasən, təhsilalanların müəyyən edilmiş geyim formasının vahidliyini pozan, habelə ümumi təhsilin dünyəvilik prinsipinə uyğun olmayan digər geyim elementlərindən istifadə edilməsinə yol verilmir.

### Ağdamdan Xankəndiyə dəmir yolu

Ağdam-Xankəndi dəmir yolunda tikinti-quraşdırma işlərinin 48 faizi başa çatdırılıb. Layihə üzrə layihələndirmə işlərinin 90 faizi, tikinti-quraşdırma işlərinin isə 48 faizi yekunlaşdırılıb. Layihə çərçivəsində Xankəndidə müasir Dəmir Yolu və Avtovağzal Kompleksinin yaradılması da nəzərdə tutulur.

### Ermənistanda Alban irsi araşdırılacaq

Qərbi Azərbaycan İcmasında indiki Ermənistan Respublikası ərazisində, tarixi Zəngəzur, Dərələyəz və Göyçə gölü hövzəsində yerləşən alban xristian irsinin öyrənilməsi məqsədilə İşçi Qrupu yaradılıb. Qrup kilsə, sövmə, xaçdaş və monastırların tarixini, memarlıq və epiqrafik xüsusiyyətlərini, mənsubiyyətini arxiv sənədləri və digər ilkin mənbələr əsasında elmi metodlarla araşdıracaq.

### Regionlarda kiçik təsərrüfatlar dəstəklənir

İndiyədək respublikamızın regionlarında 93 min şəxs üçün kiçik ailə təsərrüfatları yaradılıb. Verilən məlumata görə, ümumilikdə ölkə üzrə 115 mindən çox şəxs özünüməşğulluq proqramı ilə əhatə olunaraq, proqramın dəstəyi ilə kiçik bizneslərini qurub.

### Nə qədər müavinət ödənilib?

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu ilin yanvar-avqust aylarında 1 milyon 100 min şəxsə 1 milyard 503 milyon manat müavinət və Prezidentin aylıq təqaüdü ödənilib. Ödənilən vəsait ötən ilin müvafiq dövrünə nisbətən müavinətlər üzrə 11, təqaüdlər üzrə 12, sosial sığorta hesabına müavinətlər üzrə 5 faiz çox olub.

### Ağdamda quruculuq

"Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulmuş layihələr Ağdam, Füzuli, Xocavənd rayonlarında da qrafikə uyğun olaraq həyata keçirilməkdədir. Hazırda Ağdamda 4-cü və 5-ci yaşayış kompleksləri və Eyvazxanbəyli, Baş Qərvənd yaşayış məntəqələri, kəndlər bərpa olunur. Bu 4 yaşayış məntəqəsinin bu ilin sonuna qədər təhvil verilməsi gözlənilir.

### Qarabağda məşğulluq təmin edilir

Dövlət Məşğulluq Agentliyi Xankəndi şəhərinə, Xocalı, Xocavənd və Ağdərə rayonlarına köçürülmüş sakinlərin məşğulluğunun təminatı istiqamətində tədbirlərini davam etdirir. Artıq 3867 şəxs məşğulluq tədbirlərinə cəlb olunub. Onlardan 3723 şəxsin məşğulluğu təmin olunub, o cümlədən, 560 şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılıb. Hazırda daha 660-dək şəxsin məşğulluğunun təmin edilməsi istiqamətində işlər aparılır.

### "Birliyin Gücü"

Azərbaycanda "Birliyin Gücü – 2026" devizi altında Özbəkistan və Türkiyə hərbçilərinin də iştirakı ilə təlimlər keçirilir. Üç mərhələdən ibarət olan təlim Azərbaycan Ordusunun Qarabağ iqtisadi rayonunda yerləşən "Qızılqaya" Təlim Mərkəzində, Naxçıvan Muxtar Respublikasında yerləşən "Qarabağlar" Təlim Mərkəzində, eləcə də Xəzər dənizinin Azərbaycana aid akvatoriyasında yerləşən "Böyük Zirə" təlim rayonunda təşkil olunacaq.

# Növbəti sıra baxışı keçirilib

## Daxili işlər naziri xidmətə qəbul ediləcək gənclərə tapşırıq və tövsiyələrini verib





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 21-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 203 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Yollarda təhlükəsizliyin keşiyində

## "Formula 1" ərəfəsində paytaxt yollarında hərəkətin idarə olunmasına nəzarət artırılıb

*(Əvvəli 1-ci səhifədə)*

Paytaxtın müxtəlif ərazilərində aparılan yol və metro infrastrukturu işləri də hərəkətin intensivliyinə öz təsirini göstərir.

### ►*Hərəkət vahid mərkəzdən idarə olunur*

Hazırda şəhərin nəqliyyat axınının tənzimlənməsi üçün adi günlərdən daha artıq əmək sərf edilir. Çünki Bakının bir nöqtəsində yaranan sıxlıq çox keçmədən başqa küçələrdə də özünü göstərir. Belə günlərdə DİN-in Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi daha çox öz üzərinə, obrazlı desək, Bakı nəqliyyatının "beyni" funksiyasını götürür.

Paytaxtın 152 yol kəsişməsində Mərkəz tərəfindən idarə olunan svetoforların vaxt planlarının hazırlanaraq hərəkətin intensivliyinə uyğun tətbiq edilməsi, eləcə də küçə və prospektlərdəki müşahidə kameraları vasitəsilə nəqliyyat axınının, sıxlığın, yol qəzası, nasaz avtomobil və hərəkətə mane olan digər halların müəyyənləşdirilməsi Bakının müasir şəhər imicini tamamlayır. Bir küçədə yaranan problemin qonşu yol və prospektlərə necə təsir etdiyi də buradan görünür və buna uyğun tədbirlər görülür. Əldə olunan məlumatlar əsasında svetoforların iş rejiminə müdaxilə etmək, nəqliyyat axınının daha münasib istiqamətlər üzrə hərəkətinə şərait yaratmaq mümkün olur. Yollarda yaranan ləngimələr və qəzalar barədə yol polisi ilə məlumat mübadiləsi aparılması xüsusilə önəmlidir.











### ►*Polisin təcrübəsi böyük sınaqlardan keçib*

Burada yol polisinin xidməti önə çıxır. "Formula 1" yarışının Bakı mərhələsinin özünəməxsusluğu həm də ondadır ki, yarış şəhərin böyük bir hissəsini əhatə edən küçə trasında keçirilir. Tras boyunca və ona bitişik ərazilərdə hərəkətin məhdudlaşdırılması, alternativ istiqamətlərdə artan avtomobil və piyada axınının tənzimlənməsi, yarış ərazisinə giriş və çıxışların nəzarətdə saxlanılması polisdən geniş bir ərazidə peşəkar xidmət tələb edir.

Azərbaycan polisi bu təcrübəyə artıq çoxdan yiyələnib. Bakı 2016-cı ildən "Formula 1" yarışlarına ev sahibliyi edir və ötən illər ərzində polis əməkdaşları belə genişmiqyaslı tədbirlər zamanı ictimai asayişin, yol hərəkəti təhlükəsizliyinin təmin olunması, nəqliyyat və piyada axınının idarə edilməsi üzrə zəngin təcrübə qazanıblar. Ümumiyyətlə, son illərdə Azərbaycan ev sahibliyi etdiyi çoxsaylı beynəlxalq tədbirlərdə - idman yarışları, beynəlxalq forumlar, konfranslar, sammitlər, mötəbər siyasi və mədəni tədbirlər dünyanın müxtəlif ölkələrindən minlərlə qonağı Bakıya gətirib. Bu tədbirlərin böyük əksəriyyəti paytaxtın nəqliyyat sisteminin xüsusi rejimdə işləməsini, yol polisinin gücləndirilmiş xidmətini zəruri edib. Ayrı-ayrı küçələrin müvəqqəti bağlanması, nümayəndə heyətlərinin hərəkət marşrutlarının təhlükəsizliyinin təmin edilməsi, nəqliyyat axınının alternativ istiqamətlərə yönəldilməsi, tədbir məkanlarının ətrafında avtomobil və piyada hərəkətinin tənzimlənməsi yol polisinin üzərinə böyük məsuliyyət qoyub. Belə günlərdə şəhərin adi həyat ritminin mümkün qədər qorunması da əsas məsələlərdən biri olub. Minlərlə avtomobilin hərəkət etdiyi paytaxtda bir istiqamətin məhdudlaşdırılması digər küçə və prospektlərdə əlavə yük yaradır. Yol polisi məhz bu dəyişiklikləri operativ qiymətləndirir, yaranan vəziyyətə uyğun qərarlar verir, həm tədbirin təhlükəsizliyini, həm də şəhər sakinlərinin gündəlik hərəkətini nəzərə alır.

İllər ərzində keçirilən beynəlxalq tədbirlər zamanı qazanılmış təcrübə bu gün "Formula 1" kimi şəhərin geniş ərazisini əhatə edən yarışlarda özünü göstərir. Artıq polis əməkdaşları müxtəlif ssenarilər üzrə xidmətin təşkili, nəqliyyat axınının əvvəlcədən təhlili, ehtimal olunan sıxlıq nöqtələrinin müəyyənləşdirilməsi və alternativ marşrutların nəzərdə tutulmasına təfərrüatına qədər bələddirlər. Yəni intellektual sistem şəhərin ümumi mənzərəsini göstərirsə, yol polisi həmin məlumatı küçədə real vəziyyətlə uzlaşdırır.

### ►*İctimai nəqliyyat sıxlığa effektli alternativdir*

Bütün bunların fonunda son dövrlərdə Bakıda avtobus zolaqlarının genişləndirilməsi də şəhərin nəqliyyat yükünün azaldılması baxımından diqqət çəkir. Paytaxtda avtobus zolaqlarının uzunluğu artıq 114 kilometri keçib. Bəlkə də məhz indiki şərait avtobus zolaqlarının mahiyyətini sürücülərə ən yaxşı izah edən nümunədir. Təsəvvür edək ki, sıx küçədə hər avtomobildə orta hesabla bir və ya iki nəfər hərəkət edir. Eyni yol sahəsində bir avtobus isə onlarla sərnişin daşıyır və avtobus zolağı ilə hərəkət edən sərnişin sıxlıqda qalan şəxsi avtomobildən daha tez mənzil başına çatır. Deməli, hazırkı kütləvi tədbir və təmir - tikinti dövründə ən azından şəhər mərkəzinə doğru ictimai nəqliyyatdan istifadəyə üstünlük vermək ümumi hərəkətin təşkilinə müsbət təsir göstərər.

### ►*Təhlükəsizlik şəxsi məsuliyyətdən başlayır*

Heç bir intellektual sistem və ya ayrıca avtobus zolağı şəhərdə sıxlığı bir anda aradan qaldıra bilməz. Burada sürücünün davranışı da az rol oynamır. Yolayrıcının hərəkət dolu olduğu halda ora daxil olub qarşı istiqaməti yolunu bağlamaq, avtobus zolağına çıxmaq, ikinci cərgədə avtomobil saxlamaq bəzən yüzlərlə insanın hərəkətini ləngidir. Bir sürücünün bir neçə dəqiqə qazanmaq cəhdi başqalarının onlarla dəqiqə itirməsi ilə nəticələnir ki, bu da yollarda avtomobillərin hərəkətini ləngidir.

Etiraf etmək lazımdır ki, Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin imkanları və yol polisinin çevik xidməti ilə şəhərdə hərəkətin tənzimlənməsinin nəticəsi yollarda hər birimizin davranışından da asılıdır. Sürücülər yol hərəkəti qaydalarına əməl etməklə, avtobus zolaqlarına daxil olmamaqla, yolayrıclarını bağlamamaqla və polisin qanuni tələblərinə riayət etməklə görülən işin faydalılıq əmsalını daha da artıra bilərlər. Şəhərin nəqliyyat yükünün artdığı bu günlərdə qaydaya əməl edən bir sürücünün şəxsi məsuliyyəti minlərlə insanın təhlükəsiz və rahat hərəkətinə birbaşa təsir edir.

# Son döyüş, suveren Vətən!

## Antiterror şəhidlərinin adı tariximizdə əbədi qalacaq





*(Əvvəli 1-ci səhifədə)*

Qarabağda etnik separatizmin baş qaldırmasından ötən onilliklər ərzində verilmiş qurbanlar, yarımçıq qalmış ömürlər, yurd - yuvasından didərgin düşmüş ailələrin puç olmuş taleləri, xalqımızın üzləşdiyi faciələr qalmışdı geridə. İllərin ağrı - acısını, itkilərin nisgilini tam qələbənin sevinci, qüruru ovudurdu o gün.

Həmin gün bütün bu ədalətsizliklərə son qoymaq üçün döyüş tapşırığına yollananların ön sırasında DİN-nin Daxili Qoşunlarının hərbi qulluqçuları və polis əməkdaşları da vardı. Vətənə sədaqət andı içənlər üçün həmin anda bu andın tələb etdiyi vəzifələri canları bahasına belə yerinə yetirmək vaxtı - vədəsi gəlmişdi...

Azərbaycanın ağır sınaqlarla üzləşdiyi vaxtlarda tarixi missiyasını yerinə yetirərək öz şərəfli salnaməsini yazan daxili işlər orqanları üçün antiterror tədbirləri həmin mübarizə dolu yolun davamı oldu. Suverenlik mücadiləsinə qoşulan hər bir hərbçinin, hər bir polisin öz qəhrəmanlıq hekayəsi vardı. Biri illərini hərbi xidmətə həsr etmiş təcrübəli komandir, biri xüsusi hazırlıq keçmiş hərbi qulluqçu, digəri müxtəlif vəzifələrdə püxtələşmiş peşəkar əməkdaş idi... Biri ata, biri oğul, biri həyat yoldaşı idi.

Ağır yaralanmış komandirin insanın qəlbindən güllə kimi keçən "Qızlarıma deyərsən ki, atanız sizi çox sevir" sözləri də, şəhidlərin yolunu davam etdirməyin onların üzərinə düşdüyünü deyən hərbçinin cəsarəti də, məktəbdə olduğuna görə atası ilə son dəfə telefonda danışa bilməyən qızcığazın yollara dikilən gözləri də bu qəhrəmanlıq salnaməsinin səhifələrinə əbədi yazıldı.

Antiterror tədbirləri zamanı Vətən qarşısında borclarını yerinə yetirərkən şəhid olan polis əməkdaşları xidmət yerlərini döyüş meydanına dəyişmişdilər. Bir vaxtlar asayişin, insanların təhlükəsizliyinin keşiyində dayanan polislər bu dəfə suverenliyin keşiyində idilər. İçdikləri anda sədaqətlərini Vətən uğrunda canlarından keçərək təsdiqləyirdilər...

Sentyabrın 20-də antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə ediləndə Qarabağda artıq tamamilə yeni reallıq yaranmışdı. Azərbaycan bütün ərazisində dövlət suverenliyinin bərpasına aparan həlledici nəticəyə çatmışdı.

Dəmir yumruq kimi birləşərək bu bayrağı ucaldan qəhrəmanlarımızın ömürləri, arzuları yarıda qalsa da, uğrunda döyüşdükləri Vətən nəhayət bütövlüyünə qovuşdu. Azərbaycanın Dövlət Bayrağı Xankəndidə suverenliyin rəmzi kimi ucalanda həmin bayrağın rənglərində Daxili Qoşunların hərbi qulluqçularının və polis əməkdaşlarının da fədakarlığından bir iz, qanından bir damla vardı.

İndi onlardan geriyə adlarını yaşadacaq, xatirələrini daim əziz tutacaq əmin-aman, sülhə qucaq açan bir Vətən qalıb.

Bütöv Azərbaycan!

Suveren Azərbaycan!

***R.Mehtiyev***

# Yol polisi xəbərdarlıq edir

## Kənd təsərrüfatı texnikalarının hərəkətinə nəzarət gücləndirilib




Mövsümlə əlaqədar avtomobil yollarında kənd təsərrüfatı texnikalarının sayı artmaqdadır. Lakin bir sıra hallarda bu tip nəqliyyat vasitələri ilə yük və sərnişin daşıma qaydalarının pozulması, onların texniki tələblərə cavab verməməsi ağırlıq dərəcəsi yüksək olan yol qəzalarına şərait yaradır.

Xatırladırıq ki, texniki təhlükəsizlik baxımından istifadəyə yararsız, xarici işıq cihazları nasaz, tələblər pozulmaqla əlavə avadanlıq quraşdırılmış, kənd təsərrüfatı texnikası ilə daşımaların həyata keçirilməsi sürücü ilə yanaşı digər hərəkət iştirakçıları üçün də ciddi təhlükədir.

Əkin sahələrində çalışan insanların qanunvericiliyə uyğun təchiz edilməmiş yük avtomobillərində, traktor qoşqularında daşınması, ot kütləsinin, çəki və ölçü parametrləri aşılmaqla müxtəlif növ məhsulların qablaşdırılmadan nəql edilməsi də ağırlıq dərəcəsi yüksək olan qəzaların baş verməsinə zəmin yaradır.

Baş Dövlət Yol Polisi İdarəsi əkin-biçin işlərinin sürətləndiyini nəzərə alaraq, bir daha kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxsləri işə cəlb etdikləri əməkçilərin yol hərəkəti ilə bağlı təhlükəsizliklərinin təmin olunmasına, məhsulların daşınmasının qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsinə xüsusi diqqət yetirməyə çağırır, yol polisi tərəfindən bu sahədə nəzarət tədbirlərinin gücləndirildiyini onların diqqətinə çatdırır.

# Həcmi kiçik, məsuliyyəti böyük

## Skuterdə ani bir səhv ağır nəticələrə səbəb ola bilər



Paytaxtda və digər ərazilərdə kiçik elektrik nəqliyyat vasitələri - skuterlərdən istifadənin artması bu nəqliyyat vasitəsini gündəlik hərəkətin alternativlərindən birinə çevirib. Qısa məsafələri rahat və sürətli qət etməyə imkan verən skuterlər xüsusilə gənclər arasında geniş yayılıb. Ancaq rahatlıq və çeviklik təhlükəsizlik qaydalarının ikinci plana keçirilməsi demək deyil.

Skuterdən istifadə edən hər bir şəxs onun nəqliyyat vasitəsi olduğunu unutmamalıdır. Skuter sürücüsü də yol hərəkətinin iştirakçısıdır və hərəkət zamanı həm özünün, həm də ətrafdakı insanların təhlükəsizliyinə görə məsuliyyət daşıyır. İdarəetmə asan görünsə də, bir anlıq diqqətsizlik və ya qayda pozuntusu təhlükəli vəziyyətin yaranmasına, hətta ağır nəticələrə səbəb ola bilər.

### ► *Ehtiyatsızlığın ağır nəticələri*

Bir neçə gün əvvəl paytaxt ərazisində skuter idarə edən şəxsin yıxılaraq ağır xəsarət alması və sonradan həyatını itirməsi bu məsələnin ciddiliyini bir daha gündəmə gətirib. Hadisə skuterdən istifadə zamanı təhlükəsizlik qaydalarına laqeyd yanaşmanın ağır nəticələr doğura biləcəyini göstərir.

Skuter sürücüləri hərəkət zamanı yol nişanlarının və nişanlanma xətlərinin tələblərinə əməl etməlidirlər. Ümumi istifadədə olan avtomobil yollarında hərəkət edərkən müəyyən edilmiş qaydalara riayət olunması, avtomagistrallara çıxılmaması vacibdir. Təhlükə yalnız yolun hərəkət hissəsində yaranmır. Səkilərdə piyadaların arasından yüksək sürətlə keçmək və onların sərbəst hərəkətinə mane olmaq da ciddi risk yaradır. Xüsusilə uşaqlar, yaşlılar və hərəkət imkanları məhdud şəxslər üçün belə hallar gözlənilməz təhlükə mənbəyinə çevrilə bilər.

Bir skuterdə iki nəfərin hərəkət etməsi də təhlükəsizlik baxımından yolverilməzdir. Belə halda tarazlığı qorumaq və nəqliyyat vasitəsini idarə etmək çətinləşir, yıxılma və digər hərəkət iştirakçıları ilə toqquşma ehtimalı artır. Sükanı tutmadan hərəkət etmək, işıqforun siqnallarına və yol nişanlarına məhəl qoymamaq, nəqliyyat axınının əks istiqamətində hərəkət etmək də qəza riskini yüksəldən amillərdəndir.

Hərəkət zamanı mobil telefondan istifadə isə diqqətin yayınmasına səbəb olan ən təhlükəli vərdişlərdən biridir. Yol şəraiti saniyələr ərzində dəyişə bilər və diqqəti telefona yönəlmiş sürücünün yaranmış təhlükəyə vaxtında reaksiya verməsi çətinləşir. Elektrik skuterlərindən istifadə edənlər arasında uşaqların da olması valideynlərin üzərinə əlavə məsuliyyət qoyur. Azyaşlının skuteri idarə edə bilməsi onun yol şəraitini, sürəti, məsafəni və digər hərəkət iştirakçılarının davranışını düzgün qiymətləndirə bildiyi anlamına gəlmir. Bu səbəbdən skuterə oyuncaq kimi yanaşmaq düzgün deyil. Valideynlər uşaqlarının skuterdən istifadəsinə nəzarət etməli, 14 yaşı tamam olmamış övladının kiçik elektrik nəqliyyat vasitəsini idarə etməyə icazə verməməli, onlara yol hərəkəti qaydalarına əməl etməyin vacibliyini izah etməlidirlər. Təhlükəsizlik yalnız sürmə bacarığından deyil, düzgün davranışdan, yol şəraitinin qiymətləndirilməsindən və böyüklərin məsuliyyətli yanaşmasından da asılıdır. Skuterlərdən istifadə edən şəxslərin qaydalara riayət etməsi, piyadaların və digər nəqliyyat vasitələrinin hərəkətini nəzərə alması mühüm əhəmiyyət daşıyır. Polis əməkdaşları tərəfindən yol hərəkəti təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin əsas məqsədlərindən biri də qayda pozuntularının qarşısının alınması, hərəkət iştirakçılarının maarifləndirilməsi və yollarda təhlükəsiz mühitin qorunmasıdır.

# Cinayət cəzasız qalmır

## Polis və prokurorluq əməkdaşları qətl hadisəsinin üstünü açıblar

Şəmkirdə 2013-cü ildə törədilmiş qətl hadisəsi ilə bağlı şübhəli şəxs saxlanılıb.

Bununla bağlı DİN və Baş Prokurorluğun Mətbuat xidmətlərinin birgə məlumatında bildirilir ki, 2013-cü il avqustun 5-də Şəmkir rayonunda 1967-ci il təvəllüdlü K.Məhərrəmovanın yaşadığı evdə üzərində zorakılıq əlamətləri olan meyitinin aşkar edilməsi faktı ilə bağlı araşdırma aparılıb.

Polis və prokurorluq əməkdaşları tərəfindən birgə həyata keçirilmiş əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində qətli tamah məqsədilə törətməkdə şübhəli bilinən, 1989-cu il təvəllüdlü X.Məmmədov saxlanılaraq istintaqa təhvil verilib.

Faktla bağlı Şəmkir Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işinin ibtidai istintaqı davam etdirilir.

# Qanuni tədbirlər görüldü

## Polis əməkdaşlarına silahlı müqavimət göstərən şəxs zərərsizləşdirilib

Qanunsuz odlu silah saxlama və dələduzluq cinayətlərinə görə axtarışda olan, əvvəllər qəsdən adamöldürmə, qanunsuz olaraq odlu silah əldə etmə və saxlama, soyğunçuluq, qaçaqmalçılıq, habelə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə məhkum edilmiş M.Mirzəyev saxlanılarkən polis əməkdaşlarına silahlı müqavimət göstərib.

Polis əməkdaşları tərəfindən tabel silahı tətbiq olunmaqla M.Mirzəyev zərərsizləşdirilib.

Hadisə yerindən "Makarov" markalı tapança aşkar edilərək götürülüb.

Faktla bağlı aidiyyəti üzrə araşdırma aparılır.

# Qətiyyətli mübarizə

## Külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb



Polis əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə fasiləsiz olaraq davam etdirilir.

Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən 33 yaşlı A.Aydınlı və 28 yaşlı H.Həsənov saxlanılıblar. Onlardan ümumilikdə 32 kiloqrama yaxın narkotik vasitə aşkarlanıb.

Araşdırmalarla saxlanılan şəxslərin narkotikləri sosial şəbəkələrdə tanış olduqları, şəxsiyyətləri istintaqla araşdırılan xarici ölkə vətəndaşları vasitəsilə əldə etdikləri və paytaxt ərazisində dövriyyəsini təşkil etmək məqsədilə müxtəlif ünvanlara çatdırmağı planlaşdırdıqları müəyyən edilib.

Daşkəsəndə isə çətin relyef şəraitində narkotik əməliyyatı keçirilib.

Daşkəsən Rayon Polis Şöbəsinin əməkdaşlarının bu istiqamətdə keçirdikləri əməliyyat zamanı narkotiklərin qanunsuz dövriyyəsi, eləcə də satışı ilə məşğul olmaqda şübhəli bilinən əvvəllər oğurluq və narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş 41 yaşlı R.Əmirov saxlanılıb. Onun üzərindən 6 kiloqrama yaxın narkotik vasitə aşkarlanıb.

Araşdırmalar aparılır.

# Oğrular ifşa olunub

## Şübhəli şəxslər istintaqdadır

Paytaxtın bir neçə rayonunda törədilən oğurluq əməlinin üstü açılıb. Şübhəli şəxslər saxlanılaraq istintaqa təhvil verilib.

Xəzər rayonu ərazisində yerləşən iki mağazadan edilən oğurluq nəticəsində obyektlərdən ümumilikdə 1000 manat nağd pul, 3800 manat dəyərində kompüter, spirtli içki və tütün məmulatları talanıb.

Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməlləri törətməkdə şübhəli bilinən 20 yaşlı E.Nadirov, 23 yaşlı İ.Ağabalayev və 18 yaşlı Y.Quliyev müəyyən olunaraq saxlanılıblar.

Yasamal rayonunda isə evlərin birindən 1250 manat dəyərində məişət əşyaları oğurlamaqda şübhəli bilinən, əvvəllər məhkum olunmuş 53 yaşlı Q.Əliyev də polis əməkdaşları tərəfindən saxlanılıb.

Nizami rayonu ərazisində evlərdən birindən qızıl-zinət əşyaları və pul oğurlanıb. Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat zamanı oğurluq əməlini törətməkdə şübhəli bilinən 31 yaşlı N.Abdullayev və 29 yaşlı M.Babayeva müəyyən olunaraq saxlanılıblar.

Araşdırmalar zamanı onların evdən ümumilikdə təxminən 10 000 manat dəyərində qızıl-zinət əşyaları və pul oğurladıqları müəyyən edilib.

Faktlarla bağlı araşdırmalar aparılır.

# Bir güllə, çoxsaylı suallar

## Kriminalistlər atəş zamanı nələrə diqqət yetirirlər?

**Hadisə yerində bəzən cəmi bir neçə saniyə davam edən atəşin arxasında çoxsaylı izlər qalır. Güllənin dəydiyi səth, giliz, mərmi, barıt qalıqları, hətta odlu silahın patron üzərində buraxdığı mikroskopik xüsusiyyətlər istintaq üçün mühüm əhəmiyyət daşıyır. Kriminalistin vəzifəsi həmin izləri düzgün aşkar etmək, toplamaq və araşdırmaq, onları bir-biri ilə əlaqələndirərək hadisənin mənzərəsinin bərpasına kömək etməkdir. Atəş açılıb, yoxsa zədələnmə başqa səbəbdən yaranıb? Atəş hansı istiqamətdən açılıb? İstifadə olunan silahla hadisə yerindən götürülmüş giliz və mərmi arasında əlaqə varmı? Bu sualların cavabı çox vaxt gözlə görünməyən xırda detallarda gizlənir.**



### *Hadisə yerində ilk müşahidələr*

Silahdan atəş açıldığı barədə məlumat daxil olduqda kriminalist üçün ən vacib mərhələlərdən biri hadisə yerinin düzgün sənədləşdirilməsidir. Oradakı vəziyyət dəyişdirilməzdən əvvəl fotoşəkillər çəkilir, aşkar olunan iz və əlamətlərin yeri müəyyənləşdirilir, əşyaların qarşılıqlı yerləşməsi qeydə alınır. Divarda, qapıda, şüşədə, avtomobildə və ya digər səthlərdə aşkar edilən zədələnmələr də diqqətlə araşdırılır. Çünki hər bir deşik avtomatik olaraq güllə dəliyi hesab edilə bilməz. Səthin materialı, zədənin forması və onun ətrafında yaranmış xüsusiyyətlər hadisənin necə baş verdiyini müəyyənləşdirmək üçün kompleks şəkildə qiymətləndirilir. Əgər hadisə yerində güllə və ya giliz aşkar olunarsa, onların götürülməsi də xüsusi qaydada həyata keçirilir. Məqsəd sübutların üzərindəki mikroskopik xüsusiyyətlərin zədələnməsinə, dəyişməsinə və ya başqa maddələrlə çirklənməsinə yol verməməkdir.

Atəş açıldıqdan sonra silahın mexanizmi patron gilizi üzərində müxtəlif mikroskopik izlər buraxa bilər. Kriminalistika laboratoriyalarında giliz və güllələr üzərindəki bu xüsusiyyətlər xüsusi avadanlıq və mikroskoplar vasitəsilə araşdırılır. Məsələn, gilizin kapsul hissəsində zərbə iynəsinin izi, digər səthlərində isə silah mexanizminin müxtəlif hissələrinin yaratdığı mikroskopik xüsusiyyətlər müşahidə oluna bilər. Güllənin üzərində də lülənin daxili səthi ilə təmas nəticəsində yaranan izlər qalır.

Məhz buna görə odlu silah kriminalistikada özünəməxsus izlər yaradan obyekt kimi qiymətləndirilir. Bu göstəricilərin müqayisəsi hadisə yerindən götürülmüş giliz və güllənin konkret silahla əlaqəsinin müəyyənləşdirilməsində işə yarayır.

### *Barıt qalıqları nə deyir?*

Atəş zamanı yalnız güllə lülədən çıxmır. Patronun alışması nəticəsində yaranan qazlarla yanaşı, yanmış və qismən yanmış barıt hissəcikləri, eləcə də digər atəş qalıqları ətrafa yayılır. Bu hissəciklər geyimdə, müxtəlif səthlərdə və müəyyən hallarda atəş açan şəxsin əllərində aşkar oluna bilər. Lakin burada mühüm bir məqam var - belə qalıqların aşkar edilməsi təkbaşına "bu şəxs mütləq atəş açıb" nəticəsinə gəlməyə əsas vermir. Atəş qalıqları müxtəlif yollarla başqa şəxsə və ya səthə də keçə bilər. Buna görə əldə olunan nəticələr digər sübutlarla birlikdə qiymətləndirilir. Güllənin dəydiyi sahədə də atəşlə əlaqəli qalıqların olub-olmaması araşdırıla bilər. Bəzi hallarda güllə dəliyinin ətrafında metal və digər mikroskopik hissəciklər müşahidə olunur. Lakin onların miqdarı və yayılma xüsusiyyətləri müxtəlif amillərdən asılı olduğundan, bu əlamətlər təkbaşına atəş məsafəsinin dəqiq müəyyənləşdirilməsi üçün kifayət etmir.

### *Atəşin məsafəsini necə müəyyən edirlər?*

Kriminalistikanın mühüm istiqamətlərindən biri də atəşin hansı məsafədən açıldığının müəyyənləşdirilməsidir. Bunun üçün güllə dəliyinin ətrafındakı xüsusiyyətlər, barıt və digər atəş qalıqlarının yayılması, eləcə də əlavə əlamətlər araşdırılır. Atəş məsafəsi qiymətləndirilərkən silahın növü, istifadə olunan sursat, hədəfin materialı və digər şərtlər nəzərə alınır. Müasir laboratoriya üsulları bəzi hallarda güllə dəliyinin ətrafındakı kimyəvi qalıqların yayılmasını müəyyənləşdirməyə və bunun əsasında atəş məsafəsinin qiymətləndirilməsinə kömək edir. Bu səbəbdən hadisə yerində çox kiçik görünən bir ləkə və ya hissəcik belə kriminalist üçün əhəmiyyətli sübut xarakteri daşıyır. Kriminalistin işi yalnız "bu güllə hansı silahdan çıxıb?" sualına cavab tapmaqla bitmir. Bəzən bir hadisə yerindən götürülmüş giliz başqa cinayət hadisəsində aşkar edilmiş gilizlə əlaqələndirilə bilər. Ballistik məlumat bazalarında gilizlərin yüksək dəqiqlikli görüntüləri müqayisə edilərək mümkün uyğunluqlar müəyyənləşdirilir.

Hadisə ilə əlaqəli odlu silah aşkar edildikdə onun texniki vəziyyəti və xüsusiyyətləri araşdırılır. Zəruri hallarda laboratoriya şəraitində sınaq atəşi aparılaraq əldə edilən nümunələr hadisə yerindən götürülmüş giliz və güllələrlə müqayisə edilir. Məqsəd silahın hadisə yerində aşkar edilmiş ballistik izlərlə əlaqəsini müəyyənləşdirməkdir. Silah üzərində barmaq izləri və bioloji materialın aşkarlanması da istintaq üçün əlavə məlumatlar verə bilər. Hadisə yerində tapılan detallar birlikdə araşdırıldıqda baş verənlərin gedişatı barədə daha dolğun təsəvvür formalaşır. Kriminalistin işi ilk baxışda adi görünən detalları elmi araşdırma ilə mühüm sübuta çevirməkdir. Bəzən bir gilizin üzərindəki mikroskopik xüsusiyyətlər belə onun hansı silahla əlaqəli ola biləcəyini müəyyənləşdirməyə kömək edir. Beləcə, kriminalistika atəşin səsini eşitməsə də, onun qoyduğu izləri oxuyaraq hadisənin aydınlaşdırılmasına töhfə verir.

*Aytən Tahirova*

# DİN xidmətə qəbul elan edir

## Müsabiqədə Bakıda daimi qeydiyyatda olan vətəndaşlar iştirak edə bilərlər




Daxili İşlər Nazirliyi Bakı şəhərində yerləşən müvafiq qurumlarında vakant olan texnik-operator vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə ali təhsilli, yaşı 22-dən 29-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (qadınlar istisna olmaqla), əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Microsoft Word" və "Microsoft Excel" proqramları, habelə informasiya sistemləri və elektron məlumat bazaları ilə işləmək bacarığına malik, Bakı şəhərində daimi qeydiyyatda olan və ya yaşayan vətəndaşlar iştirak edə bilərlər.

Yol hərəkəti qaydaları sahəsində ümumi bilikləri, monitorinq, nəzarət və ya inzibati fəaliyyət üzrə iş təcrübəsi olan namizədlərə üstünlük veriləcək. Müsabiqədən müvəffəqiyyətlə keçən namizədlər Daxili İşlər Nazirliyinin kadrları sırasına qəbul edilərək onlara müvafiq xüsusi rütbə veriləcək. Namizədlər 2026-cı il oktyabrın 14-dək DİN-in rəsmi internet saytında (www.mia.gov.az) yerləşdirilmiş elektron ərizə formasını və anket məlumatlarını dolduraraq bki@mia.gov.az elektron ünvanına göndərməlidirlər.

**Ətraflı məlumat DİN-in rəsmi internet saytında yerləşdirilib:**

**https://mia.gov.az/az/vacancies/21/daxili-isler-nazirliyi-vakant-olan-texnik-operator-vezifelerine-xidmete-qebulla-elaqedar-musabiqe-elan-edir/**

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 590-80-66; (012) 590-94-12;**
**(012) 590-98-37; (012) 590-80-63;**
**(012) 590-97-52; (012) 590-94-35.**

# Adi görüntüdə gizlənən ipucu

## Təsadüfən qeydə alınan kadr polisin diqqətindən yayınmadı

***Bəzən istintaqda diqqəti cəlb edən detal uzunmüddətli axtarışlar, mürəkkəb ekspertizalar və ya xüsusi əməliyyat tədbirləri zamanı deyil, tamamilə gözlənilməz məqamda üzə çıxır. İspaniyanın Soriya əyalətində araşdırılan bir cinayət hadisəsində də belə təsadüfi görüntü istintaq materialları arasında diqqətçəkən detallardan birinə çevrilib.***




Hadisənin araşdırılması 2023-cü ilin noyabrında bir kişinin itkin düşməsi ilə bağlı polisə məlumat verilməsindən sonra başlayıb. İtkin şəxsin yaxınlarından biri onun telefonundan göndərilən şübhəli mesajlardan narahat olaraq polisə müraciət edib. Mesajlarda kişinin bir qadınla tanış olduğu, Soriya əyalətini tərk edəcəyi və əvvəlki həyatından uzaqlaşacağı bildirilirdi. Lakin yazışmaların məzmunu şübhə doğurduğundan polis araşdırmaya başlayıb. İstintaq dərinləşdikcə itkin şəxsin əlaqələri, onunla münasibətdə olan şəxslər, avtomobillər və müxtəlif ünvanlar araşdırılıb. Polis mümkün hərəkət marşrutlarını və hadisə ilə əlaqəli şəxslərin həmin dövrdə harada olduqlarını müəyyənləşdirməyə çalışıb. Məhz bu araşdırmalar zamanı adi görünən bir küçə görüntüsü diqqəti cəlb edib.

### *►Bir küçə, bir avtomobil və bir görüntü*

2024-cü ilin oktyabrında "Google Maps"in "Street View" xidməti üçün çəkilmiş görüntülərdən birində Soriya əyalətinin kiçik Tajueko yaşayış məntəqəsində qırmızı rəngli avtomobil qeydə alınıb. Kadrlardan birində avtomobilin yanında dayanan şəxsin açıq baqaja tərəf əyildiyi, içəridə isə iri ağ bağlamanın olduğu görünürdü. İlk baxışdan bu, adi küçə görüntüsü idi. Lakin polis həmin avtomobillə və araşdırılan şəxslərlə bağlı artıq müəyyən məlumatlara malik olduğundan görüntü də digər materiallarla birlikdə nəzərdən keçirilib. Bununla belə, sonradan İspaniya polisinin nümayəndələri görüntünün cinayətin açılmasında həlledici sübut olmadığını bildiriblər. Kadr istintaq zamanı nəzərdən keçirilən detallardan biri olsa da, araşdırmanın əsasını digər sübut və məlumatlar təşkil edib. Polis şübhəli şəxslərin avtomobilləri və yaşadıqları ünvanlar üzrə apardığı araşdırmalar zamanı əlavə dəlillər əldə edib. Toplanan məlumatların müqayisəsi nəticəsində hadisənin mümkün gedişatı barədə təsəvvür tədricən formalaşıb. 2024-cü ilin noyabrında hadisə ilə əlaqəli iki nəfər saxlanılıb. Bundan sonra itkin şəxsin axtarışı davam etdirilib. Dekabrın 11-də isə Tajueko yaxınlığındakı Əndəlüs yaşayış məntəqəsinin qəbiristanlığında aparılan axtarışlar zamanı basdırılmış insan gövdəsi aşkar edilib. Tapılan qalıqların itkin düşmüş şəxsə aid ola biləcəyi ehtimal edilib və onların dəqiq müəyyənləşdirilməsi üçün müvafiq ekspertizalar aparılıb. Araşdırma bununla da yekunlaşmayıb, hadisənin bütün hallarının müəyyənləşdirilməsi istiqamətində istintaq davam etdirilib.

Bu hadisənin maraqlı tərəfi "Google Maps" görüntüsünün cinayəti "açması" deyil. Əksinə, nümunə göstərir ki, istintaq zamanı müxtəlif mənbələrdən əldə edilən məlumatlar diqqətlə yoxlanılır və digər sübutlarla əlaqəli şəkildə qiymətləndirilir. Bəzən küçədə çəkilmiş adi görüntü, müşahidə kamerasının qeydi, telefon məlumatı və ya şahid ifadəsi araşdırma üçün əhəmiyyət qazana bilər. Lakin belə məlumatların dəyəri digər sübutlarla təsdiqlənməsindən asılıdır.

Tajueko hadisəsində də adi küçə görüntüsü polisin diqqətindən yayınmayıb və araşdırmada nəzərdən keçirilən detallardan biri kimi dəyərləndirilib.

# Veteran cüdoçulardan qızıl medal

## Polis əməkdaşları dünya çempionu oldular



Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda veteran cüdoçular arasında keçirilən dünya çempionatında Azərbaycan komandasının tərkibində çıxış edən polis əməkdaşları uğurlu nəticəyə imza atıblar.

M5 yaş kateqoriyasında DİN İdman Cəmiyyətinin sədri polis polkovniki Mövlud Mirəliyev 100 kiloqramadək çəki dərəcəsində keçirdiyi bütün görüşləri qələbə ilə başa vuraraq dünya çempionu adını qazanıb. O, ilk görüşündə rumıniyalı, ardınca polşalı cüdoçunu məğlub edib. Növbəti qarşılaşmada rusiyalı idmançı üzərində qələbə qazanan Mövlud Mirəliyev yarımfinalda portuqaliyalı təmsilçini mübarizədən kənarlaşdırıb. Həlledici görüşdə isə polşalı cüdoçunu məğlub edən polis polkovniki fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Mövlud Mirəliyev bununla karyerasında dördüncü dəfə veteranlar arasında dünya çempionatının qızıl medalına sahib çıxıb.

M1 yaş kateqoriyasında 100 kiloqramadək çəki dərəcəsində mübarizə aparan Əlahiddə Çevik Polis Alayının Xüsusi Təyinatlı taborunun tağım komandiri polis baş leytenantı Məmmədəli Mehdiyev də bütün rəqiblərini məğlub edərək dünya çempionu adını qazanıb.

Tağım komandiri qızıl medala gedən yolda dörd görüş keçirib. İlk qarşılaşmada Fransa, daha sonra Gürcüstan cüdoçusunu mübarizədən kənarlaşdırıb. Üçüncü görüşündə Belçikadan olan idmançını, həlledici qarşılaşmada isə Gürcüstan təmsilçisini məğlub edib.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik